AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

**«Təsdiq edirəm»**

**Filologiya fakültəsinin dekanı**

**_________ fil.f.dok. E.H.Məmmədov**

# "DƏDƏ QORQUD" ELMİ-TƏDQİQAT LABORATORİYASININ ELMI-TƏDQİQAT İŞLƏRİNİN YERİNƏ YETİRİLMƏSİNƏ DAİR

# H E S A B A T

BAKI -2017

# “DƏDƏ QORQUD” ELMİ-TƏDQİQAT LABORATORİYASININ ELMİ-TƏDQİQAT İŞLƏRİ

## 1. GİRİŞ

“Dədə Qorqud” Elmi Tədqiqat Laboratoriyası Azərbaycan Respublikası Prezidentinin 21 fevral 1999-cu il, 98 №-li sərəncamına əsasən Təhsil Nazirliyinin 04 may 1999-cu il 303 №-li əmri ilə yaradılmışdır.

“Dədə Qorqud” eposunun tarix, etnoqrafiya, ədəbiyyat, dil və coğrafiya baxımından, habelə dünya eposları ilə müqayisəli şəkildə öyrənilməsi Azərbaycan folklorşünaslıq və ədəbiyyatşünaslığının müasir inkişaf mərhələsində olduqca önəmlidir.

“Dədə Qorqud” eposunun yazıya alınma tarixi, tədqiqi tarixi, poetik strukturu, türk xalqlarının, eləcə də Azərbaycan xalqının tarixində yeri, dastanın daha qədim qaynaqları sonrakı dastançılıq ənənələrimizdə mövqeyi və təsiri, qəhrəmanlıq və məhəbbət dastanlarımızın öyrənilməsində bir mənbə kimi istifadə olunması, eyni zamanda qədim və Orta əsrlər Azərbaycan tarixinin araşdırılması, tarixi qaynaq kimi əhəmiyyəti və s. kimi filoloji parametrlərin laboratoriyada ardıcıl və sistemli şəkildə elmi işlər formasında aparılması əsas məqsəd olmuşdur.

“Dədə Qorqud” laboratoriyası fəaliyyət göstərməyə başladığı zamandan həmin problemlərin araşdırılması üçün xüsusi iş planı hazırlamış və bu plan əsasında fəaliyyətə başlanmışdır. Qeyd olunan məsələlərin, filologiyaya aid fənlərin daha da səviyyəli tədrisi və mükəmməl elmi bazanın təşkili üçün “Dədə Qorqud” elmi-tədqiqat laboratoriyası Filologiya fakültəsinin Azərbaycan ədəbiyyatı tarixi kafedrası nəzdində fəaliyyət göstərir və həmin kafedranın müdiri AMEA-nın müxbir üzvi, professor Nərgiz Arif qızı Paşayeva ona rəhbərlik edir.

2016-cı ildə “Dədə Qorqud” elmi-tədqiqat laboratoriyası “Kitabi-Dədə Qorqud” eposunda tarixi şəxsiyyətlər” adlı problem üzrə araşdırma aparmışdır. Problemin tədqiqinə AMEA-nın müxbir üzvi, professor Nərgiz Arif qızı Paşayeva rəhbərlik etmişdir.

Deməli, 2016-cı ildə «Dədə Qorqud» ETL-i özünün elmi tədqiqat planına əsasən fəaliyyətini davam etdirmiş, cari il üçün nəzərdə tutulan elmi işləri yerinə yetirmişdir.

Belə ki, Dədə Qorqudun yaşadığı dövrdə Azərbaycan ictimai-siyasi vəziyyəti, feodal ziddiyyətləri, dini ixtilaflar aramsız davam edirdi. Belə bir şəraitdə oğuzların bu torpaqlar uğrunda apardığı mübarizə və müharibələr eposun Azərbaycan ədəbiyyatının müxtəlif formalarında öz əksini tapmışdır.

Qəhrəmanlıq eposunun ədəbi janrlarda təzahürü (qəhrəmanlıq, ailə məişət, məhəbbət motivləri və s.) mifik qaynaqlar və elmi materiallar əsasında araşdırılmış, müvafiq nəticələr əldə edilmişdir.

Dastanlardakı hadisələrin folklor və cəmiyyət baxımından diqqəti cəlb edir və araşdırmalarda fiziki-mənəvi problemlərə diqqət yetirilmişdir.

Digər problem – Dədə Qorqud dastanlarında əks olunmuş mifoloji obrazlar və mifik süjetlər dünya ədəbiyyatında mövcud olan epos və əsatirlərlə səsləşir, bəzi hallarda isə tam üst üstə düşür. Bununla bağlı laboratoriyanın elmi işlərinin bir istiqaməti də «Kitabi-Dədə Qorqud»un dünya ədəbiyyatına məxsus ədəbi nümunələrlə müqayisəli təhlilinə yönəlmişdir.

Bundan başqa, mifoloji, etnoqrafik və bu kimi digər səpkidə aparılmış tədqiqat işlərinin müəyyən qismi yerinə yetirilmişdir.

Nəzərdə tutulmuş üç illik tədqiqat işinin mərhələləri yerinə yetirilmiş, elmi məcmuə və konfrans materiallarında çap olunmuşdur.

## 2. STRUKTUR VƏ ŞTAT CƏDVƏLİ

Hesabat dövründə «Dədə Qorqud» elmi-tədqiqat laboratoriyası aşağıdakı tərkibdə elmi iş aparmışdır.

| № | Adı, soyadı və atasının adı | Elmi dərəcəsi və elmi adı | Vəzifəsi | Doğulduğu tarix |
|---|---|---|---|---|
| 1. | Adil Məmməd oğlu Babayev | filologiya üzrə elmlər doktoru, professor | 0,5 ştat aparıcı elmi işçi | 1937 |
| 2. | Mobil İsmayıl oğlu Aslanlı | pedaqogika üzrə fəlsəfə doktoru, dosent | tam ştat böyük elmi işçi | 1955 |
| 3. | İlqar Zabut oğlu Hüseynov | filologiya üzrə fəlsəfə doktoru | tam ştat böyük elmi işçi | 1969 |
| 4. | Almara Vəzir qızı Nəbiyeva | filologiya üzrə fəlsəfə doktoru | tam ştat elmi işçi | 1963 |
| 5. | Samirə Şükür qızı Quliyeva | filologiya üzrə fəlsəfə doktoru | tam ştat kiçik elmi işçi | 1976 |
| 6. | İlhamə Məhəmməd qızı Babanlı | ---- | 0,5 ştat kiçik elmi işçi | 1978 |
| 7. | Ülviyyə Akif qızı İbrahimova | filologiya üzrə fəlsəfə doktoru | 0,5 ştat kiçik elmi işçi | 1981 |
| 8. | Aida Yaşar qızı Əzimova | ---- | 0,5 ştat kiçik elmi işçi | 1988 |
| 9. | Rəna Tofiq qızı Cavadova | ---- | tam ştat baş laborant | 1977 |
| 10. | Fərqanə Sədaqət qızı Əliyeva | ---- | tam ştat baş laborant | 1985 |
| 11. | Fərqanə Feyziyeva | analıq məzuniyyəti | tam ştat laborant | 1989 |
| 12 | Nigar Rüstəm qızı Məmmədli | --- | 0,5 ştat laborant | 1992 |

## 3.“DƏDƏ QORQUD” ETL-də APARILAN ELMİ-TƏDQİQAT İŞLƏRİNİN ƏSAS İSTİQAMƏTLƏRİ, ADI, SAYI, QISA ANNOTASİYASI VƏ YERİNƏ YETİRİLMƏSİ

**İSTİQAMƏT: Folklorşünaslıq**

**PROBLEM: Epos təfəkkürünün yazılı ifadəsi**

**MÖVZU: «Kitabi-Dədə Qorqud» eposunda tarixi şəxsiyyətlər**

**İş 1:** «Kitabi-Dədə Qorqud» eposunun Azərbaycan folklorunda yeri

**III mərhələ:** Epos və nağıl

İcraçılar: fil.e.d, prof., a. e. i. Babayev A.M., fil.f.d., e. i. Nəbiyeva A.V.k.e.iƏzimova A.Y.

***Baş elmi işçi., Babayev A.M.*** fil.üz.fəl.doktoru, cari ildə ümumi plana əsasən “Epos və nağıl” tədqiqat işi ilə əlaqədar elmi məqalə çap etdirmişdir.

***“Dədə Qorqud” da İslama gədər ki milli dəyərlərimiz və İslam əxlaqı*** adlı tədqiqat işində qədim tarixə malik olan “Dastan” İsalama gədər ki dövrlərdə belə tək Tanrıya inam, qadına-anaya hörmət, vətənpərvərlik, mərdlik kimi milli və mənəvi dəyrələri özündə əks etdirirdi. “Kitabi -Dədə Qorqud” dastanının boylarında İslam dinin kodeksləri bu kimi milli dəyərləri və əxlaq anlayışlarını daha da mükəmməlləşdirdiyinə şahid oluruq.

Belə ki “Dastan”ın boylarında Tanrı vəsf, peyğəmbərə salavat, oğuz elinin rifahı üçün dualar edilir.

Bundan əlavə Nəzakət Məmmədovanın filloqiya üzrə fəlsəfə doktoru elmi adını almaq üçün “Azərbaycan dilçilik elminin inkişafında professor Hadi Mirzəzadənin rolu” mövzusunda təqdim etdiyi dissertasiyaya elmi rəhbərlik etmişdir.

cari ildə ümumi plana əsasən “Epos və nağıl” tədqiqat işi ilə əlaqədar elmi məqalə çap etdirmişdir.

***Elmi işçi., Nəbiyeva A.V.***fil.üz.fəl.doktoru, cari ildə ümumi plana əsasən "Epos və nağıl" tədqiqat işi ilə əlaqədar elmi məqalə çap etdirmişdir**.**

***"Kitabi-Dədə Qorqud dastanının boylarında milli geyimlər"*** adlı tədqiqat işində A.V.Nəbiyeva "Kitabi-Dədə Qorqud" dastanında rast gəlinən milli geyimlərin yaranma tarixi haqqında məlumat vermişdir. Araşdırmadan məlum olur ki, milli geyimlər oğuz türkləri tərəfindən yaradılmış, min illər boyu təkmilləşdirilmiş və buradan da dünyaya yayılmışdır. Dastanın boylarında verilən ən dəyərli informasiyalardan biri geyim növləri haqqında bizə gəlib çatan təsəvvürdür. Dastanın əsas cəhətlərindən biri də, "Kitabi-Dədə -Qorqud"da, Dədənin igidlərə göstərdiyi sücaətə görə adla bərabər libaslarda bəxşiş etməsidir. Bu cəhətdən "Kitabi-Dədə Qorqud" eposları böyük marağa səbəb olur.

***"Kitabi Dədə Qorqud" dastanında epos - nağıl ənənələri*** adlı elmi məqalədə "Dədə Qorqud" dastanındakı epos və nağıl ənənələrindən bəhs olnur. Epik əsərlərin arasında bir-birinə ən çox yaxın olan nağıllar və dastanlardır. Ona görə oxşar süjetlərə həm nağıllarda, həm də dastanlarda rast gəlirik. Araşdırmadan məlum olur ki, əcdadlarımız oğuz türkləri tərəfindən yaradılmış nağıl motivləri min illər boyu təkmilləşdirilmiş və ustad aşıqlar tərəfindən formalaşmış, dastanlaşmış buradan da dünyaya yayılmışdır. "Nağıllarda rast gəldiyiniz qurban kəsmək, nəzir-niyaz paylamaq, motivləri sonralar ustad aşıqlarımız tərəfindən yenidən işlənərək dastanlarımıza daxil edilmişdir. Dastanın boylarında verilən motivlərə həm dastanlarda, həm də nağıllarda rast gəlirik. "Kitabi-Dədə Qorqud" dastanının boylarında olan motivlərin nağıllarla oxşarlığı tədqiqatçıların böyük marağına səbəb olmuşdur.

***K.e.iƏzimova*** A.Y. cari ildə ümumi plana əsasən verilən tədqiqat işinə dair ***"Kitabi-Dədə Qorqud dastanında millilik məsələsi***" adlı elmi məqaləsi çap olunmuşdur. Araşdırmada müəllif bəşər mədəniyyətinin nadir incilərindən biri biri olan dastanları tədqiqata cəlb etmiş, burada milli mənsubiyyət, qədim türk xalqına aid olan bir çox etnik əlamətləri tədqiq etmişdir. Ümumiyyətlə bu məqalədə "Kitabi-Dədə Qorqud" oğuz türklərinin dastanı olması fikri bir daha irəli sürülərək onun milli mənsubiyyətimizin, tarixi keçmişimizin araşdırılmasında müstəsna əhəmiyyətə malik olması bir daha öz təsdiqini tapır.

**İş 2:** "Kitabi –Dədə Qorqud" dastanı və qədim türk dilinin araşdırılması

**III Mərhələ:** **“**KDQ” və orta əsr türk dastanlarının dili

İcraçılar: k.e.i. Babanlı İ.M., k. e. i. fil.f.d., İbrahimova Ü.A.

K.e.iİbrahimova Ü.A., fil. f. d., cari ildə ümumi plan üzrə verilən **“**KDQ” və orta əsr türk dastanlarının dili” mövzusu ilə əlaqədar iki məqalə çap etdirmişdir.

***“Kitabi Dədə Qorqud dastanı”*** adlı məqaləsində dastanın dünya mədəniyyəti tarixindəki rolundan söhbət açılır. Dastandaki boylar haqqında məlumat verilir, qadın, kişi obrazları təhlil olunur, anaya, qadına münasibət, oğuz elinin adət-ənənələri, savaşdaki qəhrəmanlıqları tədqiq edilmişdir.

***“Kitabi Dədə Qorqud dastanında ədatlar”*** adlı tədqiqat işində dastanın Azərbaycan türkçəsinin tarixini öyrənmək haqqında hər zaman zəngin mənbə olması, ədatların növləri haqqında ümumi mənlumatların verilməsi kimi məqamlar araşdırılmışdır. Məqalədə dastandan seçilmiş ədata aid nümulərlə müasir Azərbaycan dilində işlənən ədatlar müqayisə edilmişdir.

*K.e.i. Babanlı İ.M.,* ümumi plan üzrə verilən “Kitabi-Də“KDQ” və orta əsr türk dastanlarının dili” mövzu ilə bağlı beş məqalə (ikisi xaricdə olmaqla) nəşr etdirmişdir.

***“Kitabi-Dədə Qorqud” dastanında feelin xəbər şəkli***” adlı məqalədə felin xəbər kateqoriyasının tarixi köklərini açmağa, onun ədəbi dilimizdəki və dialektlərimizidəki izlərini araşdırılmışdır. Dünya dilçiliyində və türkologiyada olduğu kimi “Dədə Qorqud” dastanında da feilin üç zamanını izləyirik: keçmiş, indiki, gələcək. Burada feillərin dastan boyunca zaman, şəxs və kəmiyyət şəkilçilərini qəbul edərək təsrifləndiyini, müasir ədəbi dilimizdə oxşar və fərqli məqamları müşahidə edilmişdir.

***“Kitabi-Dədə Qorqud”dakı bəzi arxaik feillərin leksik-semantik təhlilinə dair*** adlı məqaləsində feillərdə gedən inkişaf xətti və dəyişikliyi “Dədə Qorqud” dastanlarında işlənən feilləri baxımından izləməklə müşahidə etmək olar. Bu feillərin müəyyən hissəsi heç bir dəyişikliyə uğramadan dövrümüzə qədər gəlib çıxmış, bir hissəsi fonetik dəyişikliklə müşahidə olunur. Bu məqalədə ümumişləkliyini itirərək dialektlərdə qorunan və ya digər oğuz qrupu türk dillərində qalan feillərə nəzər salınır.

***“Kitabi-Dədə Qorqud”da la-şəkilçisi ilə düzələn feillər*** adlı məqaləsində “Dastan” ın dilində xeyli sayda düzəltmə feillərə rast gəlinir. Bu şəkilçilərdən ən aktivləri –la, -lan, -

laş, -at, -al, -ar və s-dir. Bu məqalədə "Dədə Qorqud" dastanında –la şəkilçisi vasitəsilə yaranan düzəltmə feillərdən söhbət açılır, onlara aid nümunələr göstərilir.

**İş 3:** Folklor və həyat tərzi

**III mərhələ:** Türk xalqlarının eposunda fiziki sağlamlıq məsələləri

**İcraçı: ped.f.d., b. e.i. Aslanlı M.İ.**

***Baş e. i., Aslanlı M.İ.*** .fil.f.d., cari ildə ümumi plan üzrə verilən "Folklor və həyat tərzi" və "Türk xalqlarının eposunda fiziki sağlamlıq məsələləri" mövzusu ilə əlaqədar iki(biri xaricdə olmaqla) məqalə çap etdirmişdir.

***«Проблемы физической культуры в эпосе «КИТАБИ-ДЕДЕ КОРКУТ»***-adlı məqalədə qədim türk tayfalarının fiziki mədəniyyət, fiziki yetginlik və onların sağlam həyat tərzi, yaşamı barədə məlumat verilmişdir. Müəllif eposda yüksək hünər və şücaət göstərən oğuz bahadırlarının qəhrəmanlıqlarını, onların bilavasitə fiziki inkişafı, fiziki hazırlıqları ilə əlaqələndirilmişdir. əsərdə diqqəti çəkən məqamlardan biri türk övladlarının idmanın at çapma, oxatma, güləş, qılıncoynatma, habelə qədim milli-xalq oyunlarımızdan olan "cövkan" a xüsusi yer ayrılmasıdır.

**İş 4:** «Kitabi-Dədə Qorqud» dastanının müasir ədəbiyyatımızda yeri

**III mərhələ:** Müasir ədəbiyyat və dastan ənənələri

İcraçılar: fil.f.d., b.e.i. Hüseynov İ.Z., fil.f.d., k.e.i.,fil.f.d., Quliyeva S.Ş.

Kiçik elmi işçi., Quliyeva S.Ş.fil.f.d., cari ildə ümumi plan üzrə verilən "Müasir ədəbiyyat və dastan ənənələri" mövzusu ilə əlaqədar iki məqalə çap etdirmişdir.

***"Dədə Qorqud"dastanı Azərbaycan bədii nəsrinin ilk nümunəsi kimi"*** adlı məqalədə qədim xalq dastanlarının bədii cəhətdən ən kamil nümunəsi olan "Dədə Qorqud" dastanının nəsr janrına xas olan bütün xüsusiyyətlərini görmək olar. "Dədə-Qorqud" qoşa janrlı əsərdir. Burda nəsr şeir ilə birləşmişdir. "Dastan" həm şifahi, həm də yaxılı nəsrin nümunəsi olub, ana dilində yaradılmış ilk böyük ədəbi abidədir.

***"Dədə-Qorqud" motivləri Anarın yaradıcılığında"*** adlı elmi işində dünya eposunun ən qədim və misilsiz qiymətləndirilən "Kitabi-Dədə Qorqud" a yeni aspektdən baxılmışdır. Orta əsrlərdən "Kitabi-Dədə Qorqud" dastanlarına olan maraq ötən yüzildə daha da artmış, ədəbi mühitdə müxtəlif səpkili bədii əsərlərin meydana cıxmasına səbəb olmuşdur.

Burada əsas məqsəd “Dastan”daki motivlərinin müasir Azərbaycan nəsrinə, o cümlədən yazıçı Anarın nəsrinə nə dərəcədə təsir etməsini müəyyənləşdirməkdir.

## 4. DƏRC OLUNMUŞ ELMİ İŞLƏRİN XARAKTERİSTİKASI

| № | İşin adı | İşin növü | Nəşriyyat, jurnal və s. adı | İşin həcmi | Müəlliflər |
|---|---|---|---|---|---|
| 1. | Azərbaycan dili və nitq mədəniyyəti | dərslik( ali məktəblər üçün azərbayacanca) | Bakı Gənclik, 2017 | 572ç.v | Babayev A.M. |
| 2. | Dilçiliyə giriş | dərslik (ali məktəblər üçün azərbayacanca) | Bakı Mütərcim, 2017 | 536ç.v | Babayev A.M. |
| 3. | Бакинский государственный университет (A.M.Məhərrəmov) | monoqrafiya (tərcümə və redaktə) | Bakı: “Bakı Universiteti” nəşriyyatı, 2017 | 44 ç.v. | Hüseynov İ.Z. |
| 4. | Azərbaycan dili (Quliyeva R.) | dərslik (rus və ingilis dillərində tərcümə və | (çapdadır) tərcümə | 45 ç.v. | Hüseynov İ.Z |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | redaktə) | | | |
| 5. | Ümumtəhsil məkəblərində kütləvi bədən tərbiyəsi və idmanın inkişaf yolları | metodik vəsait | Bakı: "Təknur" nəşriyyatı", 2017 | 142 ç.v. | Aslanlı M.H |
| 6. | Məktəb və məktəbəqədər müəssisələrdə fiziki tərbiyənin təşkili | metodik vəsait | Bakı: "Təknur" nəşriyyatı", 2017 | 158 ç.v. | Aslanlı M.H |
| 7. | Aşıq Kərəm Bəkir oğlu<br>Beləcə boşalıb dolur bu dünya | kitab | Bakı, SkuG; nəşriyyatı. 2017, 163 s. | 163 ç.v. | Nəbiyeva A.V |
| 8. | Aşığ Məhəmmədin "Məhəmməd və Şahandaz" | kitab | çapdadır | s. | Nəbiyeva A.V |
| 9. | XVII əsr Qarabağ aşıq mühiti: Aşığ Valeh "Qarabağdan səfər etdim" | kitab | çapdadır | s. | Nəbiyeva A.V |

**RESPUBLIKADA MƏQALƏ**

| | | | | | |
|---|---|---|---|---|---|
| 1. | Ulduz ömürlü insan Yusif Seyidov haqqında | məqalə | Bakı, 2017. | s. 218-221 | Babayev A.M. |
| 2. | Salatın Əhmədli-60 Azərbaycan qadının mücəssəməsi | məqalə | Bakı, 2017 | s.23-25 | Babayev A.M. |

| | | | | | |
|---|---|---|---|---|---|
| 3. | Milli azadlığımızın yeganə amilini qoruyaq | məqalə | Bakı Fiyuzat dərgisi № 95, 2017 | s.46-54 | Babayev A.M. |
| 4. | “Dədə Qorqud”da İsalama gədər ki milli dəyərlərimiz və İslam əxlaqı | məqalə | Bakı Fiyuzat dərgisi №, 2017 | (çapdadır) | Babayev A.M |
| 5. | **“**Kitab-Dədə Qorqud” dastanın boylarında milli geyimlər | məqalə | AMEA-nın Folklor İnstitutunun məcmüəsində çapdadır 2017-cı il | s. | Nəbiyeva A.V. |
| 6. | Üzərlik ilə bağlı inaclar | məqalə | Uzərlik ilə bağlı inanclar. ”Folklorşünaslıq”elmi- nəzəri jurnal, Bakı, “Araz” nəşriyyatı, s.128 | s. | Nəbiyeva A.V. |
| 7. | Azərbaycan toy mərasimlərində gəlinlik libası | məqalə | Gəncə Dövlət Universitetin. Elmi Xəbərlərində (çapdadır) 2017 | s. | Nəbiyeva A.V. |
| 8. | Azadlıq fədaisi (Səhəndin yaradıcılığı haqqında) | məqalə | Güney Azərbaycan ədəbiyyatının aktual problemləri (çapdadır) 2017 | s. | Quliyeva S.Ş. |
| 9. | “Dədə Qorqud motivləri Anarın yaradıcılığında” | məqalə | Elmi xəbərlər Bakı Dövlət Universitetinin | s. | Quliyeva S.Ş. |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | Elmi Əsərləri. № 2. Bakı, 2017-ci il (çapdadır) | | |
| 10. | “Kitabi Dədə-Qorqud” da və yazılı abidələrimizdə işlənmiş müştərik arxaik feillər. | məqalə | Ağa Musa Axundovun 85 illiyinə həsr olunmuş “Ağa Musa Axundov və Azərbaycan filologiyası” Bbeynəlxalq Elmi konfransın materialları”. “Elm” Bakı. | s.498-501 | Babanlı.İ. M. |
| 11. | “Kitabi Dədə-Qorqud” dastanında feilin xəbər şəkli | məqalə | Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu. “Tədqiqlər” | s.109-119 | Babanlı.İ. M. |
| 12. | “Azərbaycan dilində feillərin ümumi mənzərəsinə dair” | məqalə | BDU-nun xəbərləri №3 | (çapdadır) | Babanlı.İ. M. |
| 13. | “Kitabi-Dədə Qorqud dastanında millilik məsələsi” | məqalə | | s. | Əzimova A.Y. |
| 14. | “Kitabi Dədə Qorqud ” haqqında | məqalə | Dil və ədəbiyyat jurnalı (çapdadır), 2017 | s. | İbrahimova Ü. |

| | | | | | |
|---|---|---|---|---|---|
| 15. | "Kitabi-Dədə Qorqud" dastaninda ədatlar | məqalə | Dil və ədəbiyyat jurnalı (çapdadır), 2017 | s. | İbrahimova Ü.A |

**XARICDƏ MƏQALƏ**

| | | | | | |
|---|---|---|---|---|---|
| 1. | Концепты «Вера» и «Душа» в детективных романах Ч.Абдуллаева | məqalə | World science :Problems and innovations.Сборник статей XVмеждународной научно-практической конференции «World science:Problems and innovations». Сотоявшейся 30 ноября 2017 г. В г. Пенза | s.236-238 | Hüseynov İ.Z |
| 2. | Derivative verbs with lexical morphem-la in "The book of Dede Korkut" European Journal of Linguistics. | məqalə | Austria,Vienna 2017 №3 | s. 26-29 | Babanlı İ.M |
| 3. | О лексико семантическом анализе | məqalə | Мова и культура, выпуск 27, том 6, 2017г.Украина. | s. 127-131. | Babanlı İ.M |

| | | | | | |
|---|---|---|---|---|---|
| | архаических глаголов в «Китаби Деде Коркут» | | | | |
| 4. | “Dədə Qorqud” dastanı Azərbaycan bədii nəsrinin ilk nümünəsi kimi | məqalə | Türkiyə (çapdadır), 2017-ci il | s. | Quliyev aS.Ş. |
| 5. | Збірник наукових прць педагогічні науки | məqalə | 100 Pokilı Херсонському державному університету Херсон-2017 | s. 8-12 | Aslanlı M.İ. |
| 6. | Проблемы физической культуры в эпосе «КИТАБИ-ДЕДЕ КОРКУТ» | məqalə | Редакция наукового віснiку міжнародного гуманітарного університету. Серія «Філологія» 2017, №29 | | Aslanlı M.İ. |

**RƏYÇI**

| | | | | | |
|---|---|---|---|---|---|
| 1. | Kompüter tərcümə proqramları | Ön söz | Bakı ,2017 | Səhifə 2-7 | Babayev A.M. |
| 2. | Azərbaycan dili və xalqımızın etnogenezinə dair dəyərli araşdırma | Ön söz | Bakı , Kaspi qəzeti 2017 | Səhifə -15 | Babayev A.M. |

**5. QRANTLAR ƏSASINDA YERİNƏ YETİRİLƏN ELMİ TƏDQİQAT İŞLƏRİ - yoxdur**

**6. AMEA İLƏ ELMİ ƏLAQƏLƏR - yoxdur**

**7. XARİCİ DÖVLƏTLƏRİN TƏHSİL VƏ ELMİ MÜƏSSİSƏLƏRİ İLƏ ƏLAQƏLƏR – yoxdur.**

**8. ELMİ-TƏDQİQAT İŞLƏRİNİN NƏTİCƏLƏRİNİN TƏTBİQİ**

"Kitabi-Dədə Qorqud" dastanının geniş və hərtərəfli araşdırılması türkologiyanın nəzəri problemlərinin təhlil edilməsi türk ədəbiyyatşünaslığı və dillərinin tarixi, onların etnik kökü, mədəniyyəti ilə bağlı bir sıra məsələlərin həllində əhəmiyyətlidir. Tədqiqatın nəticələrindən türk dillərinin tarixi leksikologiyası, morfologiyası, sintaksisi, türk xalqlarının ədəbiyyatşünaslığı, etnoqrafiyası, etnogenezisi məsələlərinin öyrənilməsi, həmçinin türk dastançılıq ənənələrinin müqayisəli şəkildə tədqiqi zamanı istifadə etmək olar.

Tədqiqatın materiallarından ali məktəblərin filologiya fakültələrində folklora və türkologiyaya aid kusrlarda istifadə etmək olar.

**9. PATENT VƏ İNFORMASİYA İŞLƏRİ – yoxdur.**

**10. DÖVLƏT PROQRAMLARININ İCRASI – yoxdur.**

**11. «DƏDƏ QORQUD» ELMİ-TƏDQİQAT LABORATORİYASININ KEÇİRİLMİŞ KONFRANSLARIN, SEMİNARLARIN, SİMPOZİUMLARIN XARAKTERİSTİKASI**

**12. ETL-də ELMİ – PEDAQOJİ KADRLARIN HAZIRLANMASI**

A.Y.Əzimova Bakı Dövlət Universitetinin doktorantura pilləsini bitirmiş, ilkin kafedra müzakirəsini başa vurmuşdur. Dədə Qorqud ETL-in baş lab. Cavadova Rəna Tofiq qızı fəlsəfə doktoru proqramı üzrə müdafiəsini uğurla başa vurmuşdur.

## 13. DİSSERTASİYA MÜDAFİƏSİ VƏ DİSSERTASİYA ŞURALARININ FƏALİYYƏTİ.

Professor Adil Məhəmməd oğlu Babayev Azərbaycan Respublikası yanında Ali Attestasiya Komissiyasının nəzdində 5706.01 – Azərbaycan dili ixtisasından filologiya üzrə elmlər doktoru və fəlsəfə doktoru dissertasiyalarının müdafiəsinin nəticələrinin ekspertizası ilə məşğul olan Ekspert Şurasının üzvidir. Həmçinin onun rəhbərliyi ilə iki doktorant fəlsəfə doktorluğu dissertasiyasını bitirib müdafiə şurasına təqdim etmişdir.

Bundan əlavə "Dədə-Qorqud" ETL-n baş laborantı Cavadova.R.T. qızı 25 oktyabr 2017- ci il fillolgiya üzrə filsəfə dotkoru dərəsini almaq üçün təqdim etdiyi ""

dissertasiyasını müdafiə etmişdir. (BDU-n İxtisaslaşmış Şurasında) .

"Dədə-Qorqud" ETL-n kiçik elmi işçisi Əzimova A.Y.2017-ci ildə fillolgiya üzrə filsəfə dotkoru dərəsini almaq üçün təqdim etdiyi "Azərbaycan dramaturgiyasında qadın obrazlarının təkamülü (XIX əsrin 50-ci illərindən XX əsrin 30-cu illərinə qədər") dissertasiyasını ilkin müzakirəsi keçirilmişdir. (BDU-n İxtisaslaşmış Şurasında) .

## 14. 2018-cı İLDƏ HANSI AVADANLIQLARIN ALINMASINA EHTİYAC DUYULUR

ETL-də kompüter və printerin alınmasına ehtiyac duyulur.

## 15. ƏSAS NƏTİCƏLƏR VƏ TƏKLİFLƏR

Müqayisəli-tarixi folklorşünaslığın nəzəri problemlərinin təhlil edilməsi türk xalqları ədəbiyyatı və dillərinin tarixi, etnik kökü, mədəniyyəti ilə bağlı bir sıra məsələlərin həllində əhəmiyyətlidir. Tədqiqatın nəticələrindən türk ədəbiyyatı və

dillərinin tarixi, etnoqrafiyası, etnogenezisi məsələlərinin öyrənilməsi, həmçinin "Kitabi-Dədə Qorqud" dastanlarının müasir türk filologiyası ilə müqayisəli şəkildə tədqiqi zamanı istifadə etmək olar.

Tədqiqatın materiallarından ali məktəblərin filologiya fakültələrində foklora aid kusrlarda istifadə etmək olar.

ETL əməkdaşları 2017-ci ildə aşağıda göstərilən işləri hesabata daxil ediblər: kitab, kitaba ön söz, məqalə.

**Azərbaycan ədəbiyyatı tarixi**
**kafedrasının müdiri:** **prof. N.A.PAŞAYEVA**